İPƏK YOLU, No.2, 2025, səh.159-169
https://doi.org/10.30546/SI.2025.2.5.262

# SABİR ƏHMƏDLİ HEKAYƏLƏRİNDƏ TARİXİ REALLIĞIN BƏDİİ İNİKASI

**Məlakə Rəcəbova**

Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
e-mail: melake_elyasova@mail.ru

**Xülasə.** Məqalədə Sabir Əhmədli hekayələrində 20 yanvar hadisələri zamanı xalqımızın başına gətirilən müsibətlər, yaşadıqları faciələr və bu zaman kəsiyində düşmənə qarşı mübarizəsi araşdırılmışdır. Yazıçı hekayələrində bir çox problemləri təsvir etməyi bacarmışdır. Bu problemlər Sabir Əhmədlinin hekayələrində müxtəlif ədəbi qəhrəmanların yaşadığı hadisələrdə öz əksini tapmışdır.

**Açar sözlər:** Şəhidlər, milli mübarizə, tarixi yaddaş, qələbə.

## THE ARTISTIC REFLECTION OF HISTORICAL REALITY IN SABIR AHMADLI'S STORIES

**Malaka Rajabova**
*Baku Slavic University, Baku, Azerbaijan*

**Abstract.** The article examines the misfortunes that befell our people during the January 20 events, the tragedies they experienced, and their struggle against the enemy during this period in Sabir Ahmadli's stories. The writer managed to describe many problems in his stories. These problems are reflected in the events experienced by various literary heroes in Sabir Ahmadli's stories.
**Keywords:** Martyrs, national struggle, historical memory, victory.

## ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ ИСТОРИЧЕСКОЙ РЕАЛЬНОСТИ В РАССКАЗАХ САБИРА АХМЕДЛИ

**Малака Раджабова**
*Бакинский Славянский Университет, Баку, Азербайджан*

**Резюме.** В статье рассматриваются несчастья, постигшие наш народ во время событий 20 января, пережитые им трагедии и борьба с врагом в этот период в рассказах Сабира Ахмедли. Писатель сумел описать множество проблем в своих рассказах. Эти проблемы нашли отражение в событиях, пережитых различными литературными героями в рассказах Сабира Ахмедли.
**Ключевые слова:** Мученики, национальная борьба, историческая память, победа.

Sabir Əhmədlinin "Yanvar hekayələri" kitabında toplanmış hekayələrin hamısı Azərbaycan xalqının tarixində dərin iz qoymuş 1990-cı il 20 Yanvar hadisələrinə həsr edilmişdir. Hekayələrdə işğalçı qonşuların Bakıya hücumu, Bakı əhalisinin yaşadığı faciələr, qırğınlar, küçələrdə qan tökülməsi və işğalçıların vəhşilikləri müəllif tərəfindən nifrətlə təsvir olunur. "Sabir Əhmədli bu hekayələrdə insan hislərini, ondakı vətənpərvərlik duyğularını, yurdu üçün əzmlə mücadilə etməsini psixoloji nüans dəqiqliyi ilə ifadə etməyə çalışır. Eyni zamanda rus imperialist siyasətinin obrazı, bir xalq olaraq dəfələrlə aldanışlarla üz-üzə qalmağımız kimi məsələlər də hekayələrin içindən əsas xətt olaraq keçir. Qeyd edək ki, kitabda yer alan "Dənizdən gələn səda" hekayəsi ABŞ-da da yayımlanmışdır. Hekayədə 20 Yanvar faciəsi ilə bağlı məqamlara, gizlin qatlara varılır, məsələn meyitlərin dənizə atılması, yandırılması, ölülərə edilən həqarətlər, izi itirmək üçün onları sulara qərq etməklə bağlı faktlar və s. onların həqiqətə əsaslandığı çox keçmədən etiraf edildi [1, s.28].

**Müharibənin dəhşətləri və xalqın silahsız mübarizəsi**

“Heç nə” adlı hekayədə biz düşmənin torpaqlarımıza hücumuna, xalqımızın igid, mərd, qorxmaz nümayəndələrinin onlara qarşı silahsız mübarizəsinə şahid oluruq. Hekayədə müharibənin başlanması, hansı ərazilərə düşmənlərin hücum etməsi, gecə yarısı açılan atəşlər bir ailənin dilindən təsvir olunmuşdur. Yazıçı hekayədə obrazlara xüsusi ad verməmiş, kişi, qadın və oğul olaraq qeyd etmişdir. Biz burada ailənin övladının düşmənə qarşı mübarizəsinin şahidi oluruq ki, sonda silahsız qalan insanların geri çəkilməsini görürük. Çünki xalq artıq silahsız şəkildə düşmənə qarşı mübarizə apara bilmir, tankların altında qalıb həlak olurdular. Kişilər, qadınlar, tələbələr hamsı sonda geri çəkilməyə məcbur olurlar. Bu hekayədə yazıçı müharibə dəhşətlərini, xalqımızın başına gətirilən müsibətləri aydın şəkildə təsvir etməyə çalışmışdır. Hekayənin sonunda səhərin açılması ilə bütün əhali həyətlərə düşüb gecə nə baş verdiyini aydınlaşdırmağa çalışırdı, çünki atəşin haradan açıldığı, hansı ərazilərin pulemyot hücumuna məruz qaldığını heç kim dəqiq bilmirdi.

**Şəhidlərimizin dəfninə qarşı etiraz və erməni vəhşiliyinin təsviri**

“Qərənfil qan içində” adlı hekayədə isə biz vətən uğrunda canlarından keçən şəhidlərimizin dəfn mərasimi ilə qarşılaşırıq ki, burada biz xalqımızın şəhidlərimizin dəfni ilə bağlı etirazı ilə rastlaşırıq. Əhali etiraz edir və bildirirdilər ki, “Qırx gün taziyə saxlayacağıq. Hamı qara paltar geysin. Saqqal buraxacayıq - qırx gün” [3, s.12]. Sonradan oxucuya məlum olur ki, müharibədə şəhid olmuş insanların sayı barədə xalqa yalan məlumat verilir, hətta onların dəfn olunmasına da şərait yaradılmır və onları qazanxanada yandırmağa çalışırmışlar. Yaralıların belə xəstəxanalara deyil, zirzəmilərə aparılması haqqında da məlumatlar yayılmışdı.

Yazıçı bu hekayədə erməni vəhşiliyini çox təsirli şəkildə təsvir etmiş, xalqımıza qarşı törətdiyi cinayət əməllərini oxucuların diqqətinə çatdırmağı bacarmışdı: “- Eləsi var canında iyirmi güllə yeri. Bəs bir insana o qədər atəş açarlar? Dəlmə-deşik meyitlər var. - Onu ermənilər eləyib” [3, s.14]. Qaniçən ermənilər yaraladıqları və öldürdükləri ilə qalmır, meyitləri güllə atəşinə tutaraq tanınmaz hala salırdılar.

Əsər boyu gözündən bir damla yaş axmamasına görə özünü günahkar bilən Saleh kişinin gözü gətirilən cənazəyə sataşdı. Cənazədən bilinirdi ki, bu məktəblidir və sumkası da yanında. O an sanki, Saleh kişinin “ocağı qalandı, qaynar damlalar paqqıldayıb, gözlərini yandırdı. Qızıl taxtda, şahzadə timsalında ucalıb gedən qızcığazı səslədi: “Çantalı balam, mənim quzum! Sən haraya yol almısan?” [3, s.17]. Həmin anda sanki göydən qan yağır, meydan qərənfil qanına boyanmışdı. Sanki kişinin qulağına səda gəldi: “Ağlama, baba, ağlama!” [3, s.17].

Hekayənin sonu düşmən gülləsinə qurban gedən qızcığazın sözləri ilə bitir:

Haraylar...
Hər ulduzlar, hər aylar.
Qan içində gül bitib,
Suzsuzluqdan haraylar [3, s.17].

**Vətənsiz qalanlar, vətənə xainlik edənlər**

Digər hekayədə olduğu kimi "Sağ-salamat" adlı hekayənin də mövzusu 20 Yanvar hadisələri ilə bağlıdır. Hekayədə bir çox məqamlara toxunulsa da, yazıçı bir ailənin faciəsi fonunda o məqamları oxucusuna çatdırmağa çalışmışdır. 20 Yanvar gecəsində baş verənlər haqqında məlumat almaq üçün həyətə düşən atasını tapmaq üçün gedən oğul geri qayıtmır. Ata evə dönəndən sonra ailənin əsl faciəsi başlanır. Günlərlə övlad dərdi ilə bütün xəstəxanaları, morqları gəzən ata sonda övladının cansız bədəni ilə qarşılaşır. Bu müddət ərzində insanların bir-birinə təsəllisi də çox acınacaqlı idi. Hamı ümid edirdi ki, övladının dirisinə yox, ölüsünə də olsa sarıla bilsin. Çünki bəzi valideynlər heç övladının ölüsünü də tapa bilmirdilər. Tanklar insanları elə əzib keçmişdi ki, tanınmaz halda düşmüşdülər. Hətta ölüləri yandırmağa da başlamışdılar ki, etdikləri vəhşiliklərin üstünü qapatsınlar. Bəziləri övladını bədəninin bir tikəsindən tanıyırdı. Ağlasığmaz bu hal ilə biz İkinci Qarabağ Müharibəsi zamanı da qarşılaşdıq, lakin bir fərq var idi ki, biz bu müharibədən Qalib Xalq olduq. 20 Yanvar 1990-cı il hadisələrində xalqımız necə silahsız şəkildə düşmənə qarşı döyüşürdüsə, 27 sentyabr 2020-ci il tarixində başlanan müharibədə də əsgərlərimiz düşmənə qarşı yeri gəldikcə təkbətək, silahsız formada döyüşmüş və torpaqlarımızı erməni qaniçənlərindən təmizləməyə müvəffəq olmuşlar. Yazıçı sadəcə nitq söyləməklə məşğul olan vətən xainlərini də tənqid etməyi unutmamış və bu hərəkətlərinə görə onları qınamışdır. Xəstəxanalarda, morqlarda yatan kasıb təbəqənin balaları olmuşdur ki, bunun sübutunu onların geyimindən bilmək olurdu.

**Müharibənin dəhşətləri arxasında qalan həyatlar**

"Şəhidlər Xiyabanı" adlı hekayəsində yazıçı müharibədə şəhid olmuş insanların necə dəfn edilməsini, insanların Dağüstü parka axınını təsvir etmişdir. Şəhidlər xiyabanına gələn hər insan qəbirləri qərənfillərlə bəzəməyə çalışırdı. Bu müharibədə yaşından, cinsindən asılı olmayaraq, kişi, qadın, qoca, cavan, körpə fərqi qoymadan düşmən hamsını atəşə tutmuşdu. Bu müharibənin ən böyük faciəvi cəhəti də gözlənilmədən xalqımızın düşmən hücumuna məruz qalması idi. Silahsız xalq daha nə qədər dayana bilərdi tankların qarşısında. Biz bu hekayədə öz canları bahasına da olsa, xalqını müsibətdən qurtarmaq üçün sürücülərin düşmən gülləsinə məruz qaldığına şahid oluruq. Maşını olan hər kəs çalışırdı ki, yaralılarla bərabər ölənləri də xəstəxanalara, morqlara çatdırsınlar. Çarəsiz qalan anaların harayını bütün incəlikləri ilə oxucusuna çatdırmağa çalışan yazıçı, sonda ananın balasına laylayını qələmə alaraq qeyd etmişdir: "Yatacaq, qərənfilli yuxu görəcək... Sonra oyanacaq, çantasını götürüb, məktəb yolu ilə zavalsızcasına dərsə gedəcəkdi" [3, s.38].

**Müharibə, ümid və qələbə**

"Giliz xəzəli" adlı hekayədə Qanlı 20 Yanvar faciəsindən üç gün sonra təsvir olunmuşdur. O gecədən sonra ilk dəfə əhali geriyə dönüb, başlarına gələn faciənin fəsadlarına baxmağa çalışırdı. Evlərin pəncərələri dağıdılmış, mətbəxə, otaqlara, əşyalara xeyli ziyan dəymişdi. Buna baxmayaraq, insanlar o gecədən sağ çıxdıqlarına şükür edirdilər. Bircə arzuları bu faciənin tez zamanda sona yetməsi idi. Salyan Kazarmasında əsgərlikdə olanların

valideynləri çox narahat idi. Çünki gecədən kazarma düşmən tərəfindən zəbt edilmiş, valideynlərə heç bir məlumat verilməmişdi. Kazarmaya gedən yol giliz ilə döşənmişdi, sanki payız gəlmiş, xəzəl yeri bürümüşdü.

"Salyan Kazarması susdu" adlı hekayədə biz əsgərlərimizin düşmənə qarşı mübarizəsinin şahidi oluruq ki, onların bu mübarizəsi əhaliyə bu çətinliklərə dözmək gücü verirdi. Yazıçı hekayədə baş verənləri bir ailənin fonunda və obrazların dili ilə əks etdirməyə çalışmışdır. Hekayədə qarşılaşdığımız obrazlardan biri zamanında müharibədə olmuş, döyüşlərdə var gücü ilə vuruşmuş, başından qəlpə yarası almış və həyatı boyu o qəlpə ilə yaşayan baba obrazıdır ki, hal-hazırda baş verən müsibətlərin acısını dinməzcə qəlbində çəkir, kazarmadakı əsgərlərimizin nələr çəkdiyini anlayır və sadəcə susurdu, çünki zamanında özü də bu çətinliklərlə qarşılaşmışdı. Sanki onun susması müharibənin necə bitməsini güman etməsi ilə bağlı idi.... Nənə obrazı isə düşmənə qarğışlar yağdırır, əsgər balaların halına yanırdı. İlk başlarda vəziyyətin ağırlığını anlamayan nənə sonradan babanın xəstəxanaya yerləşməsindən sonra gördüklərinə dözə bilmirdi, hər şey ona indi aydın olurdu. Onların qızları Nüşabə isə üç övladı ilə ata evinə sığınmışdı, çünki yoldaşı qaz idarəsində işləyirdi. Müharibə boyu qaz kəmərlərinin qorunması üçün demək olar ki, evdə olmurdu. Aqil, Aygül, Şəfəq adlı nəvələr isə uşaq yaşlarından artıq müharibədə xalqımızın başına gətirilən müsibətlərə şahid olmuş, lakin heç zaman qələbəyə olan ümidlərini itirməmişdilər.

Buradan oxucuya məlum olur ki, illər əvvəl 20 Yanvar hadisələrində Salyan Kazarmasında olan əsgərlərimiz düşmənə qarşı necə çətinliklə mübarizə aparmış, qanlarının son damlasına qədər vurmuşdular. Xalq arasında yayılan söyləntilərə görə əsgərlərimiz sonradan xalq cəbhəsi tərəfindən silahlandırılmış və bundan sonra düşmənə qarşı mübarizəni davam etdirməyə nail olmuşdular. Bütün gecəni silah səsləri kəsilmirdi, nəvələrin "Bizimkilər" dediyi məhz Salyan Kazarmasındakı əsgərlərimiz idi.

Hekayənin sonunda ailənin xəstəxanada gördüklərindən sonra susması nəvələri çox narahat edirdi... Oxucuya məlum olur ki, xəstəxanada yerləşən əsgərlərin böyük bir qismi öz xalqımıza qarşı verilən atəş əmrinə qarşı çıxmış, əmrə əməl etmədikləri üçün bolşeviklər tərəfindən vurulmuşdular. Silah səsləri yavaş-yavaş azalırdı... "Salyan Kazarması - balaların alınmaz qalası susurdu" [3, s.57].

Yazıçı "Əsgər məzuniyyəti" hekayəsində əsgərlikdən məzuniyyətə gələn əsgərin simasında, onun dilindən vətən oğullarının əsgərlik adı ilə Rusiyaya aparılmasını, lakin orada onlara təlim keçərək silah tutmağı, atəş açmağı öyrətmir, onları ölkənin şəhər və qəsəbələrində qul kimi işlətdiklərini təsvir etmişdir.

Yanvar hadisələri zamanı oğlunun məzuniyyətə gəlməsi də atasına qəribə gəlir, icazə kağızını görənə qədər hələ də inana bilmir, güman edir ki, ölkənin başına gələnləri duyub və qaçıb gəlmişdir. Məzuniyyət vərəqini görəndən sonra atanın ürəyi toxtayır. Məhz bundan sonra ailənin sorğu-sualı nəticəsində onlara məlum olur ki, övladlarını orada qul kimi işlədirlər. Heç bir əsgər ailəsindən xəbər ala bilmədiyi üçün, onlar belə qərara gəlirlər ki, içərilərindən beş

əsgər seçib göndərsinlər Bakıya, Sumqayıta və Naxçıvana. Bununla heç olmasa ailələrindən xəbər tutar və narahatlıqlarına son qoyulardı. İcazə məsələsini də “işləməyəcək”ləri ilə təhdid edərək həll etmişdilər. Hekayədə də təsvir edildiyi kimi, xalqımızın başına gətirilən müsibətlər televiziyalarda aydın şəkildə verilmirdi. Xarici kanalların məlumatına görə əsgərlərimizi təyyarələrə mindirərək Sibirə sürgün etmişdilər.

Məzuniyyətə gələn əsgərlərə verilən əsas tapşırıq onların adından şəhid ailələrinə başsağlığı verilməsi idi... “Biz Vətəndən uzaqda hərbi xidmətdə olan azərbaycanlı əsgərlər şəhidlərin ruhu qarşısında diz çökür, onların ata-analarına dərin hüznlə başsağlığı veririk” [3, s.70]. Qəzetdə çıxan bu yazı ilə Ümid üzərinə düşən vəzifəni yerinə yetirmişdi.

**Gələcək Nəsillərə Ötürülən Dərslər**

Yazıçı hekayələrində 20 Yanvar qırğınları zamanı baş verən hadisələri aydın şəkildə gələcək nəsillərə ötürmək üçün ən xırda detallara qədər təsvir etməyə çalışmışdır. “Dərs” adlı hekayədə biz 20 Yanvar hadisələri zamanı xalqımızın düşmən tapdağına məruz qalaraq fiziki şiddət görməsinə rəğmən, bizlərə qarşı mənəvi təsir etməkdən də çəkinmirdilər. Bu hekayədə biz məktəb direktorunun Bakı Komendantlığının əmrinə əməl etmək üçün bütün məktəb müəllimlərinin və şagirdlərinin məktəbə gəlməsi tələbi ilə rastlaşırıq ki, müharibə zamanı bu addım ağlasığmaz idi. Biz burada direktorun çarəsizliyi ilə də qarşılaşırıq ki, o da öz vəzifəsini itirməmək üçün verilən tapşırıqlara əməl etməyə çalışırdı. Məktəbdə artıq uşaqların şən səsləri eşidilmir, divarlar sanki susmuşdu...

Məktəbə gələn müəllimlərin hansı çətinliklərlə qarşılaşdığını eşidəndə direktor özünü günahkar bilsə də, hiss etdirməməyə çalışır və hər kəlməsində bildirirdi ki, hər kəs məktəbə gəlməli, bağçalar, körpələr evi işləməlidir ki, zavodda işləyən valideynlər də işə gedə bilsinlər. Direktor da Komendantlığın dediklərini təkrar edərək qeyd edirdi ki, “Biz dözümlü olmalıyıq. Heç bir dərd, qüssə bizi sarsıtmamalıdır. Başqa müəssisələr də işə başlayacaqdır. İşləməməyin heç bir faydası yoxdur. Şəhərdə iş, fəaliyyət nə qədər tez yoluna düşsə, fövqəladə vəziyyət də o qədər tez götürüləcəkdir” [3, s.72]. Direktorun çıxışı müəllimlər tərəfindən heç də müsbət qarşılanmadı, çünki başlarına gələn müsibətlər qurtarmamışdı, onları qarşıda nələrin gözlədiyini heç təsəvvür belə etmək istəmirdilər.

Ertəsi gün birinci növbəyə yaxındakı şagirdlərin bir hissəsi gəlmişdilər. Onlarla bərabər gələn ata-analar direktorun kabinetinin qarşısında dayanmış və haqlı olaraq, müharibə şəraitində övladlarının məktəbə məcburi şəkildə gətirilmələrinə qarşı üsyan edirdilər. Onlar bildirdilər ki, Xalq Cəbhəsi xalqı tətilə çağırıb. Nə qədər ki, bu cəlladlar ölkədən çıxmayıblar, heç kim işləməməlidir deyə qeyd etdilər. Valideynlərin haqlı üsyanları qarşısında direktor sadəcə susurdu... Ətrafda olan müəllimlər də direktoru düşünürdülər, çünki onlar da bilirdilər ki, komendant kəskin şərt qoymuşdu. Lakin haqlı danışıq qarşısında susmaq ən yaxşı çıxış yolu idi.

Yazıçı hekayədə baş verən hadisələri bir də şagirdlərin dilindən vermiş, onların həyəcanlarını, qorxularını incəliyinə qədər əks etdirməyə çalışmışdır. Ən çox şagird o gün Gülzar müəllimənin sinfində idi. Yoxlama aparan zaman gəlməyən şagirdlərin birinin

qardaşının, digərinin isə əmisinin düşmən gülləsinə tuş gəldiyi məlum oldu. Şagirdlərin təhlükəli vəziyyətə məktəbə gəlmələri Gülzar müəllimə üçün də çətin idi, lakin başqa çarə yox idi. Arxa partada oturan şagirdlərdən biri bildirdi ki, qəzetlər vəfat edənlər barədə düzgün məlumat vermir, yalnız Bakıda ölənlərin sayı 300-dən çoxdur. Komendant gizlədir. Atam deyir ki, müharibədə vəfat edənlərin sayı yüzdən çox olsa, gərək bu işə BMT baxsın [3, s.75]. Artıq uşaqlara da baş verən vicdansızlıqlar məlum idi.

Hekayənin sonunda bizim diqqətimizi çəkən əsas məqam məktəbin qarşısında olan və əzilmiş, sürtülmüş maşınların zərər dəyən hissələrinin rənglənməsi idi ki, yazıçı hekayəni bu sonluqla bitirir: "Gün ötəcək, quruyacaqdı. Üstdən öz rəngi çəkiləndə sezilməyəcəkdi" [3, s.77]. Bəli illər ötdü və biz müstəqillik qazandıq... Lakin ölkəmizə, xalqımıza vurulan zərbələri heç bir zaman unutmadıq... Vətən yolunda canından keçən şəhidlərimiz hər zaman qəlbimizin qanayan yarasıdır...

**General Yazovun qəddarlığına qarşı xalqın dirənişi**

"Qara bayraqlar" hekayəsində yazıçı bizi 1990-cı ildə yanvarın 19-dan 20-nə keçən gecədə SSRİ Ali Sovetinin Bakıda və Azərbaycanın bəzi rayonlarında fövqəladə vəziyyət yaratmaq barədəki əmrini yerinə yetirmiş, əhalini qana qəltan etmiş General Yazov və onun qəddar əməlləri ilə tanış etməyə çalışmışdır. Şəhidlərin Dağüstü parkda dəfn edilməsinə belə etiraz edən Yazov bildirmişdir ki, "Mən sizin özünüzü orada basdıraram" [3, s.77]. Sonradan xalqın dirənişini görmüş və fikrindən dönməyə məcbur qalmışdı.

AXC-in başçıları MK qarşısındakı tribunadan şəhidlərin dəfnini əsl xalq matəminə, izdihamlı nümayişə çevirməyə səsləyirdi: "Yoldaşlar! Tarixdə misli görünməmiş bir xəyanət olmuşdur. Azərbaycan hökumətinin rəyi olmadan, bizim bütün etirazlarımıza baxmayaraq, Qorbaçovun əmrilə Bakıda yeridilmiş işğalçı sovet qoşunları yüzlərlə dinc insanı məhv etmiş, tankların təkərləri altında əzmiş, avtomat və ən müasir silahlarla xalqı qırmışdır" [3, s.77]. Onlar qeyd edirdilər ki, vətənin azadlığı uğrunda canından keçən şəhidlərimizin dəfnini də onların müqəddəs ruhlarına layiq şəkildə keçirməliyik. Bu dəfn sanki Azərbaycan xalqının satqın, xəyanətkar hökumətə, işğalçı orduya qarşı böyük etiraz mərasimi olacaqdır.

Artıq ölkə qara rəngə boyanmışdı... Xalqımıza qarşı bu əməlləri törədənlər isə hər vəchlə baş verənləri ört-basdır etməyə, müharibədə həlak olanların sayını azaltmağa cəhd edirdilər. Etdikləri əməllərdən utanmayan komendantlıq şəhidlərin dəfninin adi qaydada aparılmasını tələb edirdi. Bəlkə də, onlar mərasimin keçirilməsini qəti şəkildə istəmirdilər. Onların qarşılarını alan əsas səbəb, "millətin öz övladlarının itkisindən yanıb-qəzəblənərək, onları ləyaqətlə torpağa tapşırmaq istəyi milli heysiyyətdi və buna qarşı çıxmaq ağır hadisələr törədərdi" [3, s.78] qorxusu idi. Xalq şəhidlərin bir yerdə dəfn edilməsinə qərar verdi, çünki onlar düşmənə qarşı birgə, çiyin-çiyinə vuruşmuş və həlak olmuşdular. Şəhidlər Xiyabanının məhz Dağüstü parkda yerləşdirilməsinə qarşı çıxan Generalın bəlkə də əsas paxıllığı, vətən uğrunda canlarından keçənlərin Bakının ən yüksək nöqtəsində dəfn edilməsi idi.

Xalqın doğmalarına belə yas saxlamağına, qara bağlamağına qarışan general gizlincə göstəriş verdi ki, bütün ticarət mərkəzlərindən qara parçalar yığışdırılsın. Lakin gün keçdikcə qara bayraqlar bütün şəhəri bürümüşdü. Respublikanın fabrik-zavodları işləmir, ali və orta məktəblərdə dərs keçirilmirdi. Xalq matəm elan etmiş və işə çıxmırdılar. Bu adi yaslar zamanı olan işsizlik deyildi, bəlkə də şəhidlərin köləliyə qarşı etiraz hayqırığının simvolu idi, Bakının xəzri küləyinə belə tab gətirməyi bacaran qara bayraqlar...

Günü-gündən artan bayraqlar generalı çox narahat edirdi, çünki bu qədər qara parça haradan idi sualı onu rahat buraxmır, gecələr yuxusunda da narahat edirdi. "Həzrət general! Bayraqları qadınlar gətiriblər" [3, s.81]. Bu bayraqlar qadınların çadralarıdır. General "Azad qadın" heykəlini göstərərək söylədi ki, məgər bu heykəli siz ucaltmamısız? Necə olur ki, çadralar qalıb. Onlar bildirdilər ki, bunları qocalar saxlayıb, xeyirdə-şərdə istifadə etmək üçün. General sözünə davam etdi:

– "Hm. Bilirmişlər başlarına qəza gələcək.

– Bəlkə də. "Çadra daloy" deyib, hələ iyirminci illərdə kütləvi olaraq çadraları atmışdılar. Görünür, hamı yox. Sandıqlarda, boxçalarda cehiz təki saxlamışdılar.

– Çadraları ləğv etmiş hökumətin neçə qərinə sonra törədəcəyi faciəyə ağlamaqdan ötrü. Matəm bayrağı olsun deyə" [3, s.82].

Həqiqətən də belə olmuşdu, baş verən gecənin səhəri AXC-in matəm şöbəsinə xeyli qadın gəlmiş və qara çadralar gətirmişdilər. Gəlinlik yadigarı olan tikiş maşınlarını toy geyimləri üçün yox, şəhidlərin yasına işlətdilər: qara bayraq, ağ kəfən tikmək üçün...

**Azərbaycan Kommunist Partiyasının sonu və xalqın müstəqillik hərəkatı**

"Atılmış biletlər" hekayəsində oxucuların diqqətinə çatdırılmalı olan əsas məqam xalqımızın illərdir üzvü olduqları Kommunist Partiyasından imtina etməsinin əsas səbəbləri idi. 1920-ci ildən öz fəaliyyətinə başlayan Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının adı 1952-ci ildən AKP adlandırılaraq, partiyanın adından bolşeviklər sözü çıxarıldı. 1988-ci ildə başlayan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Sovet İttifaqı Kommunist Partiyasının tutduğu mövqe Azərbaycan Milli Azadlıq Hərəkatının genişlənməsinə səbəb oldu. Baş verəcək hadisələrin qarşısını almaq üçün 1990-cı il yanvarın 20-də Sovet qoşunlarının Bakıya yeridilməsi və burada törədilən qırğınlar Azərbaycan tarixində faciəvi bir səhifə olaraq yadda qaldı. Bu hadisə Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsini gücləndirdi və Sovet sisteminə qarşı kütləvi etirazlar başladı. Yanvar hadisələri nəticəsində Azərbaycan Kommunist Partiyasına olan etimad demək olar ki, tamamilə itirildi. Minlərlə insan partiya sıralarını tərk etdi və partiyanın nüfuzu ciddi şəkildə sarsıldı. Bu proseslərin nəticəsi olaraq, 1991-ci il sentyabrın 14-də Azərbaycan Kommunist Partiyasının XXXIII (fövqəladə) qurultayında partiya özünü buraxdı. Bu, Azərbaycanın Sovet keçmişindən qurtulmaq və müstəqil dövlət qurmaq istiqamətində atılan mühüm addımlardan biri idi [6].

Baş verən qırğınlardan sonra ölkəmizin şəhər və rayonlarında partiya biletlərindən imtina halları genişlənmişdi. Hekayədə partiya biletlərindən imtina halının təsviri hələ kiçik bir ərazi üçün keçərli idi. Partiya rəhbərlərindən olan Nazim müavini olan Eldara tapşırdı ki, artıq

iclas keçirmək zamanıdır, çünki insanlar hissə-hissə partiyaya müraciət edir və imtina etmək istədiklərini bildirirdilər. Müavin bütün kommunistlərə xəbər göndərdi və bildirdi ki, mütləq hamı partiya bileti ilə gəlsin. Onu da qeyd etdi ki, iclasa gəlməyənlər satqın elan olunacaqlar. İclas zamanı partiya iştirakçıları dönə-dönə vurğulayırdılar ki, xalqımızın başına gətirilən fəlakətlərin fərmanını Ali Sovet vermişdir. Qorbaçovun iç üzü xalqa Bakı hadisələri zamanı daha aydın olmuşdu. Belə qatilin rəhbərlik etdiyi partiyada qalmaq cinayətdir. Partiya sədri iştirakçıların çıxışlarını dinlədikdən sonra bildirdi ki, buraya toplaşmaqda əsas məqsəd qərar qəbul etməkdi və ona görə biz müraciət hazırlamışıq. Müraciəti Atamalı rəis oxudu. Bu müraciətlə o xalqın dilindən dünyaya üz tutmuş, ölkənin Ali Məclisini Bakıda törədilmiş qanlı təcavüzə siyasi qiymət verməsini istəyirdi. Əsas şərt bu idi ki, "ya cinayətkarlar faş edilməsi, ya da Azərbaycan respublikası milli qırğının partiya siyasəti təki yeridildiyi bir dövlətin tərkibində qala blməzdi. Biz and içirik. Biz şəhidlərimizin ruhu qarşısında diz çöküb, azadlıq, istiqlaliyyət, milli suverenlik bayrağı qaldırırıq" [3, s.88]. İclasın sonunda iştirakçılara bildirildi ki, partiya biletləri təhvil verilsin və ərizələr toplanılsın. Düzdür bəziləri ya ərizəni vermədi, bəziləri də partiya biletini. "Qardaşlar! Daha bizim partiya təşkilatımız yoxdur. Buraxılmışdır. Bitti hərb, bitti səfərbərlik" [3, s.88].

"Talan" hekayəsində biz baş verən hadisələrdən sonra ermənilərin ölkəmizi tərk etməsi, Ermənistanda yaşayan azərbaycanlıların (yerli azərbaycanlılar onları yeraz adlandırırdı) ölkəmizə geri dönməsi ilə qarşılaşırıq. Və talan məsələsi də bundan sonra başladı. Ermənistandan qayıdan azərbaycanlılar özləri ilə bir kibrit çöpü də gətirməmişdilər, buna görə köçüb gedən ermənilərin evlərinə məskunlaşlamağa çalışır və ermənilərin onların başlarına gətirdikləri müsibətlərin əvəzini çıxır, onları ölkəmizi tərk etməklə bağlı hədələyirdilər, haqsız da deyildilər. Artıq qisas almaq zamanı çatmışdı. Oxuculara məlum olur ki, bəzi ermənilər gedərkən belə evlərini bizimkilərə satıb ölkəni tərk ediblər. Azərbaycan vətəndaşı ilə evlənən və onun soyadını daşıyan ermənilər boşanandan sonra da o soyaddan imtina etmir və bununla da izlərini itirməyə çalışırdılar. Hekayədəki Gövhər obrazı da buna sübutdur.

Xalqımızın başlarına gətirilən dəhşətlərdən sonra da erməni saldatlarını şəhərdə görmək mümkün idi. Onların bəziləri heç çəkinmədən özlərini bəlli edir, "Mən erməniyəm. Gəlmişəm. Kimin hünəri var dursun qabağa" [3, s.99] deyə xalqımıza gözdağı verməyə çalışırdılar. Onlara bu cəsarəti verənlər də məhz qırğına rəvac verənlər idi.

1990-cı il yanvarın on doqquzundan iyirmisinə keçən gecə sovet qoşunları Bakıya daxil olaraq bütün istiqamətlərdən, o cümlədən dənizdən hücuma keçdilər. Bu, Sovet qoşunlarının silahsız vətəndaşlara qarşı misli görünməmiş hücumu idi [7]. "Dənizdən səda gəldi" hekayəsi də bu hücumlar zamanı şəhid olan oğulun anasına yazdığı məktubdan bəhs edir. Amerikalı ədəbiyyatşünas və Azərbaycan ədəbiyyatı mütəxəssisi Betty Blair, 1990-cı illərin əvvəllərində ingilis dilinə tərcümə edib "Azerbaijan International" jurnalında nəşr etdirdiyi bu hekayəni belə təqdim edirdi: "Sabir Əhmədlinin üslubu sürreal hesab oluna bilər. "Dənizdən gələn səda"

hekayəsində xaotik gecədə öldürülmüş bir oğul anasına məktub dilində ölümünü və ölüsünü təsvir edir. Bu müddətdə dəniz cəsədi kənara atıb, suitilər cəsədlə çarpışır" [2].

Yazıçının iyirmi yanvar hekayələrinin bir hissəsi 1990-cı ildə quruda baş verən dəhşətlərdən bəhs edirsə, bu hekayəsində isə yazıçı müharibədə həlak olanların necə düşmən tərəfindən amazsızlıqla öldürüldüyünü və suitilərə qurban verildiyini təsvir edir. "Tez aparın onları! Səhərə heç bir dəlil qoyma! Təmizləyin!" [3, s.101] deyərək etdikləri vəhşiliklərin izini itirməyə çalışıdılar. Xəzər gəmiləri hərbi gəmilərin açıq dənizə çıxmasının qarşısını nə qədər almağa çalışsalar da, bu mümkün olmadı. Hekayədə adı çəkilən "Sabit Orucov" üçmərtəbəli okean layneridir və Xəzər Sahil Mühafizəsinin qərargahı kimi xidmət etmişdir. O, 1990-cı ilin yanvar hadisələri zamanı o qədər böyük zədələnmişdi ki, artıq dənizə yararlı hesab edilmir və restoran və bara çevrildiyi Abşeron otelinin qarşısındakı Terminal Limanının yanında sahildə lövbər salıb. Ağ suitilər isə Xəzər dənizində nadir suiti növüdür [8].

"Mağmun ruh" hekayəsində biz "Azərbaycan Xalq Cəbhəsinin", "Qurtuluş"- qızılbaşlar təşkilatlarının nümayəndələrinin qarşı-qarşıya gəlməsinə şahid oluruq. Onlar bir-birlərini günahlandırır, vaxtında köməyə çatmadıqları, dinc əhaliyə divan tutulmasının qarşısını almadıqları üçün qarşı tərəfi xəyanətdə, satqınlıqda, günahlandırırdılar.

Baş verən hadisələrdən sonra saldatlar şəhərdə gəzişir və hər an əlləri silahlarında idi. "İz" hekayəsində biz saldatların günahsız insanlara qarşı necə amansız davranışlar sərgilədiyinə şahid oluruq ki, maşınının karburatorunun tutulması səbəbindən partlama səsi eşidildiyi üçün sürücünü silah atəşinə tutdular. Bir güllə gicgahından, bir güllə də sinəsindən dəymişdi. Saldatların bilib-bilmədən atəş açmasına xalq artıq öyrəşmişdi, gecələr atışma səsləri eşidilirdi, amma başa düşmək olmurdu ki, yaxındandı ya uzaqdan. Artıq Dağüstü park xalqın ziyarət yeri olmuşdu. Əvvəllər məzarlar aydın görünürdüsə, indi artıq güllər ilə örtülmüşdü. Və müharibə xalqımızın ürəyində dərin izlər qoymuşdu.

"Cəza" adlı hekayədə biz vətənə xəyanət edən, satqınlıq edənlərin hökumət evinin daş eyvanında cərgə ilə düzülməsinə və xalq tərəfindən cəzalandırılmasına şahid oluruq. Güllələnməzdən əvvəl onlara qarşı tətbiq edilən cəza üsulu biraz fərqli idi, kimliyindən asılı olmayaraq bütün əhali hökumət evinin eyvanına dırmanır, cərgə ilə düzülmüş xəyanətkarların üzlərinə tüpürürdülər. Xalq sanki bununla onlardan qisaslarını alır, ürəklərinə təskinlik verirdilər. Amma heç bir cəza onların itirdikləri əzizlərini geri qaytarmayacaq, onların acılarını dindirməyəcəkdi.

**Qaranlıqdan işığa**

Yazıçının "İşığı söndürmə" hekayəsindəki obrazlar İlham və Fərizəni xatırladır. Yazıçı sanki yaratdığı obrazlarda onları əks etdirməyə çalışmış, amma tam şəkildə təsvir etməmişdir. Hekayədəki İlham obrazı da iyirmi yanvar hadisələri zamanı həlak olmuş, həyat yoldaşı isə onun ölümünə dözməyib özünü zəhərləyərək öldürmüşdür (Fərizə də sirkə içərək intihar etmişdir). İlham və Fərizə kimi onları da yan-yana dəfn etmişdilər. Hekayənin adına gəldikdə isə dərdli ana yatan zaman oğlunu yuxusunda görmüş və oğlu ona otağını niyə qaranlıqda qoyduğunu söyləmişdi. Yuxudan oyanan ana qızına tapşırdı ki, get otağın işıqlarını yandır.

Artıq qanlı şənbədən 2 ay keçmişdi. Onları qara bayramları yaxınlaşırdı. İşığı yandıran zaman bacı elə bir mənzərə ilə qarşılaşdı ki, özü də inana bilmədi. Otaqda iki quş işıq yanan zaman pırpıltı ilə uçub otağı dolanıb qapıdan çıxdılar. Axı onlar vəfat edən gündən otağın qapı və pəncərələri bağlı idi, quşlar ora necə keçmişdi. Baş verənlər qarşısında təəccüb keçirən qız əhvalatı anasına danışdı. Ana kövrəldi və qızına söylədi ki, "Qızım! Qardaşının, gəlinimizin ruhu imiş o quşlar. Bayrama görə otaqlarına baş çəkməyə gəlibmişlər... Allahın günahsız bəndəsisən, bala. Ruhlar gözünə görünüb" [3, s.125]. Bundan sonra sanki ana da rahatlıq tapmışdı.

Sabir Əhmədli qələmə aldığı bu hekayələrdə baş verən dəhşətləri olduğu kimi oxucusuna çatdırmaq istəmiş, hekayələrin bütün oxucular üçün anlaşıqlı olması üçün qəliz cümlələrdən çəkinmişdir. "Ədib aşkarlığın verdiyi imkanlardan istifadə edərək sətiraltı və mənaaltı mənalara o qədər də böyük ehtiyac duymamış, hər şeyi olduğu kimi, birbaşa deməyə və əks etdirməyə çalışmışdır. Bu isə söz demək imkanının bolluğu baxımından böyük əhəmiyyətə malikdir; belə ki, heç bir rəsmi sənəd həmin dövrü bu hekayələr qədər dəqiq əks etdirməyə qadir deyildir" [11, s.41]. Fərhad Mədətovun fikrinə şərik olan Elçin Mehrəliyev də qeyd edir ki, "Bəli, yazıçı, publisist öz dövrünün cərəyan edən hadisələrinin şahidləridir və onlar bu dövrün, xüsusən də Vətənin ağır günlər yaşadığı zamanı yorulmaz səlnaməçiləri olmalıdırlar. Belə məqamda zaman, onun insan faciəsi barədə bəlkə də epik təhkiyənin yaradılması vacib deyildir, vacib və zəruri olan başqa şeydir: zamanı, xalq həyatını, hadsələri doğru-dürüst qələmə almaq, şahid rolunda çıxış etmək" [9, s.134]. Doğrudur, bu çətin məqamda ən düzgün addım xalqımızın başına gətirilən dəhşətləri olduğu kimi qələmə almaq, oxuculara çatdırmaq idi. Çünki yazılar gələcək nəsillərə miras, dünyaya səsimizi çatdırmaq üçün sübutdur. "Biz hələ ki,.. Şəhid deyilik, qəfil güllələrin, qara ölümlərin, günahsız tökülən qanların, saxta bəyanatların, iyrənc hiylələrin şahidləriyik. Ali şahidlər - müşahidəçilər də deyilik, axır il yarımda min yol ölüb, min yol dirilmişik" [5, s.5]. Bəxtiyar Vahabzadə də baş verən hadisələrin onun qəlbində yaratdığı təlatümü bu şəkildə təsvir edir: "Bu faktları düşündükcə əlimdə qələm titrəyir, sözlər boğazımda tıxanıb qalır, məni qəhər boğur. Bu boyda haqsızlığı sözlərin məhdud mənasına sığışdıra bilmirəm. Sözlərin və kəlmələrin nə günahı? Günah haqsızlıqdadır. Bu boyda haqsızlıq, bu boyda zorakılıq dilin imkanlarından o tərəfə sıçrayır - sözlər mənə gücsüz və imkansız gəlir" [12, s.3].

**Nəticə.** Yazıçı bu hekayələr vasitəsilə Azərbaycan xalqının sovet işğalına qarşı mübarizəsini, yaşadıqları ağrıları, faciələri və şəhidlərin fədakarlığını emosional və realist bir dillə oxuculara çatdırır. Eyni zamanda müəllif hadisələrin fərqli aspektlərini müxtəlif obrazlar və məqamlarla təqdim edərək, xalqın müqavimət ruhunu və mübarizəsini ön plana çəkir. Onun əsərlərindəki məğz, yalnız tarixə olan sadiqlik deyil, həm də bu faciələrin gələcək nəsillərə ötürülməsi və unutulmaması vacibliyidir. Yazıçı 20 Yanvar hadisələrinin acı izlərini, həmçinin xalqın qəhrəmanlıq əzmini, dözümünü və mübarizəsini təsvir edərək, bu dövrün ən mühüm ədəbi və tarixi sənədlərindən birini yaratmışdır. Sabir Əhmədlinin sadə və anlaşıqlı üslubu,

oxucuya hadisələri olduğu kimi təqdim edir və onları dərindən hiss etdirməyi bacarır, bu da onun əsərlərinin gücünü və əhəmiyyətini artırır.

## Ədəbiyyat


1. Akimova E. (2021), Qarabağ müharibəsinin ədəbiyyatımızda ilk epik panoramlı əksi - Sabir Əhmədli romanları. Ədəbiyyatda Qarabağ Mövzusu Respublika Elmi Konfrası Materialları, 27-33.
2. Əhmədli S. (1990), Dənizdən gələn səda (20 yanvar hekayəsi). https://edebiyyat.az/proza/94-sabir-ehmedli-denizden-gelen-seda-20-yanvar-hekayesi.html
3. Əhmədov S. (1992), Yanvar Hekayələri. Bakı: Azərnəşr, 126.
4. Həbibbəyli İ. (2016), Müstəqillik Dövrü Azərbaycan Ədəbiyyatı, 2 cilddə, I cild. Bakı: Elm və təhsil, 800.
5. Həbiboğlu H., Həbiboğlu V. (1992), Şahidlər. Bakı: Gənclik, 504.
6. https://az.m.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Kommunist_Partiyas%C4%B1
7. https://www.azer.com/aiweb/categories/magazine/31_folder/31_articles/31_russianbear.html
8. https://www.azer.com/aiweb/categories/magazine/71_folder/71_articles/71_ahmadli.html#anchor3188260
9. Mehrəliyev E. (2000), Müharibə və Ədəbiyyat (Qarabağ uğrunda mübarizə və 90-cı illərin Azərbaycan ədəbiyyatı). Bakı: Azərnəşr, 228.
10. Mehrəliyev E. (2008), Azərbaycan Ədəbiyyatında Qarabağ Mövzusu: İdeya və Sənətkarlıq Məsələləri. Bakı: Nurlan, 324.
11. Mədətov F. (2017), Sabir Əhmədli Yaradıcılığında Dissident Motivlər və Müstəqillik. Bakı, 287.
12. Vahabzadə B. (1990), Şəhidlər. Bakı: Gənclik, 448.